www.ipekchi.info

# İPƏKÇİ

1933-cü ildən nəşr edilir

AZƏRBAYCAN İPƏKÇİLƏRİNİN AÇIQ TRİBUNASI

№ 9 (2273) 18 oktyabr 2010-cu il Qiymәti 20 qәpik

*"..."İpəkçi"nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm",*

**Heydər Əliyev.**

## 113, 114 və 115 saylı Şəki seçki dairələri üzrə 20 nəfərin namizədliyi qeydə alınıb

*O cümlədən, 113 saylı Şəki şəhər seçki dairəsi üzrə 8 məfər:*

1. BAĞIROV ƏBÜLFƏZ ƏNVƏR OĞLU;
2. ƏLİYEV NAMİQ ABDULLA OĞLU;
3. HACI-ZƏKƏRYƏYEV RÖVZƏT TACƏDDİN OĞLU;
4. İBADOV SEYMUR ƏLƏKBƏR OĞLU;
5. İBRAHİMXƏLİLOV QORXMAZ YAŞAR OĞLU;
6. KƏRİMOV SAHİB FƏRMAN OĞLU;
7. MAHMUDOV YAQUB MİKAYIL OĞLU;
8. NƏCƏFOV İDRAK RƏFAİL OĞLU.

*O cümlədən, 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə 6 məfər:*

1. KƏRİMOV ƏVƏZ SÖHRAB OĞLU;
2. MƏMMƏDOV HİKMƏT MUSTAFA OĞLU;
3. MƏSİMLİ ƏLİ ƏHMƏD OĞLU;
4. RASULOV RAFİQ ABDULƏLİ OĞLU;
5. SEYİDOVA ŞƏRQİYYƏ ƏBÜLFƏT OĞLU;
6. SƏMƏDOV TELMAN ƏHƏD OĞLU.

*O cümlədən, 115 saylı Şəki kənd ikinci seçki dairəsi üzrə 6 məfər:*

1. BAYRAMOV NAZUM ORUCOVİÇ OĞLU;
2. FEYZİYEV CAVANŞİR ƏYYUB OĞLU;
3. İSMAYILOVA SÜDABƏR ŞÖYÜB OĞLU;
4. QEYBULLA ADİL ƏBÜLFƏT OĞLU;
5. MƏHƏRRƏMOV FİRUZ EHTİBAR OĞLU;
6. MUSTAFABƏYLİ RƏVANƏ BƏHRAM QIZI.

## 114 saylı Şəki kənd birinci seçki dairəsindən deputatlığa namizəd

# – Rasulov Rafiq Abduləli oğlu



Rasulov Rafiq Abduləli oğlu 1958-ci il aprel ayının 10-da Şəki şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1965-ci ildə Şəki şəhər 7 saylı orta məktəbin birinci sinfinə daxil olmuş, 1975-ci ildə həmin məktəbin X sinfini bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş, 1980-cı ildə ali məktəbi riyaziyyatçı, müəllim ixtisası üzrə bitirmişdir.

Ali təhsili başa vurduqdan sonra təyinatla Şəki rayonu taxılçılıq sovxozu qiyabi orta məktəbinin Böyük Dəhnə tədris məsləhət məntəqəsinə müəllim təyin edilmiş, 1983-cü ilin iyun ayınadək orada işləmişdir. 1983-cü ilin iyun ayından 1993-cü ilin sentyabr ayınadək Şəki şəhəri Geofizika rəsədxanasında böyük texnik, mühəndis və geofizik vəzifəsində çalışmışdır. 1985-1989-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Geologiya institutunun aspiranturasında təhsil almış, 1993-cü ilin oktyabr ayından 1994-cü ilin aprel ayınadək M.Ə.Rəsulzadə adına BDU-nun Şəki filialında kafedra müdiri, 1994-cü ilin aprel ayından 2000-ci ilin noyabr ayınadək həmin filialda direktor müavini vəzifələrində işləmiş, 2000-ci ilin noyabr ayından 2001-ci ilin avqust ayınadək AMİ-nin Şəki filialında tədris işləri üzrə direktor müavini vəzifələrində çalışmışdır. 2001-ci ilin avqust ayından hal-hazıradək həmin filialda direktor vəzifəsində işləyir.

Fizika-riyaziyyat elmləri namizədidir. 1992-ci ildə "Üçlaylı geoloji mühitdə tektonik dalğavarı proseslərin modelləşdirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Namizədlik dissertasiyasının müdafiəsindən sonra bir monoqrafiyası, bir dərs vəsaiti, xaricdə səkkiz elmi məqaləsi çap olunmuşdur. İki Beynəlxalq konfransda tezisləri dərc edilmişdir.

R.A.Rasulov 1997-ci ildən "Qeyri-xətti hiperbolik və parabolik tənliklərin həllərinin keyfiyyət xassələri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

2007-ci ilin aprel ayında Azərbaycan Müəllimlər İnstitutunun Elmi Şurası tərəfindən Şəki filialın "Təbiət elmləri və tədrisi metodikası" kafedrasına dosent vəzifəsinə seçilmiş, 2009-cu ildə AAK-nın qərarı ilə ona dosent elmi adı verilmişdir.

R.A.Rasulov 1996-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Atası – Rəsulov Abduləli Lətif oğlu, vəfat etmişdir.

Anası – Rəsulova Rəfiqə Rəsul qızı, 1924-cü ildə anadan olmuşdur, təqaüdçüdür.

Ailəlidir. Həyat yoldaşı - Rəsulova Yeganə Cəmaləddin qızı 1968-ci ildə Şəki şəhərində anadan olmuşdur. Hal-hazırda Şəki şəhər 5 saylı orta məktəbdə müəllimə işləyir. Üç övladı var.

Qızı – Rəsulzadə Fəridə Rafiq qızı, 1990-cı ildə Şəki şəhərində anadan olmuş, hal-hazırda Bakı Dövlət Universitetinin III kurs tələbəsidir.

Qızı – Rəsulova Səmra Rafiq qızı, 1992-ci ildə anadan olmuş, hal-hazırda Bakı Dövlət Universitetinin I kurs tələbəsidir.

Qızı – Rəsulzadə Selvin Rafiq qızı, 2000-ci ildə anadan olmuşdur, orta məktəbin II sinfində oxuyur.

Dos. R.A.Rasulova 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adı verilmişdir. O, 2009-cu ildə Türkiyə, 2010-cu ildə Fransa respublikalarında ixtisasartırma təhsilinin təşkili ilə bağlı beynəlxalq əməkdaşlıq çərçivəsində ezamiyyələrdə olmuşdur.

## 115 saylı Şəki kənd ikinci seçki dairəsindən deputatlığa namizəd

# – Qeybulla Adil Əbülfət oğlu



Adil Abülfət oğlu Qeybulla (Adil Qeybullayev) 1962-ci il fevralın 4-də Şəki rayonunun Kiş kəndində anadan olub.

1978-ci ildə Kiş kənd orta məktəbin 10-cu sinfini qızıl medalla bitirib. Elə həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universitetinin) müalicə-profilaktika fakültəsinə daxil olub və 1984-cü ildə həmin institutu müalicə işi ixtisası üzrə əla qiymətlərlə bitirib. Təhsil müddətində Lenin təqaüdçüsü olub.

1984-1985-ci ildə Musa Nağıyev adına Bakı Şəhər Kliniki Təcili Tibb Yardımı Xəstəxanasında cərrahlıq ixtisası üzrə bir illik internatura keçib. 1985-ci ilin avqustundan 1986-cı ilin sentyabrına kimi M.A.Topçubaşov adına Elmi-Tədqiqat Klinik və Eksperimental Cərrahlıq İnstitutunun (Respublika Cərrahlıq Elmi Mərkəzinin – RCEM) mikrocərrahlıq şöbəsində həkim-cərrah vəzifəsində çalışıb.

### Adil Qeybulla: Mən seçkiyə qələbə əzmi ilə gedirəm. Dairədə rəqiblərim kimlər olur-olsun, narahat deyiləm, özümə inanıram

1986-cı ilin oktyabrında cərrahlıq ixtisası üzrə aspiranturaya daxil olub.

1988-ci ilin oktyabrında professor V.C.Seyidovun rəhbərliyi ilə vaxtından 1 il əvvəl namizədlik dissertasiyasını müdafiə edib. 1988-ci ilin dekabrından 1990-cı ilin fevralına qədər Tibb Universitetinin II ümumi cərrahlıq kafedrasında işləyib.

Elmi-tədqiqat işinin nəticəsi kimi qida borusunun rekonstruktiv-bərpaedici operasiyaları zamanı operasiyaönü, intraoperasion və operasiyadan sonrakı yaxın dövrlərin aparılmasının yeni üsulunu işləyib hazırlayıb və müəlliflik şəhadətnaməsi alıb. Bu məqsədlə həmin işi davam etdirmək və başa çatdırmaq üçün 1990-cı il fevralında Topçubaşov adına institutun torakal cərrahlıq şöbəsinə elmı işçi vəzifəsinə keçirilib.

1991-ci ilin başlanğıcında həmin iş üzrə fermentlərin başa çatdırılması və dissertasiya müdafiəsi üçün SSRİ Tibb Elmələri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin (hazırda N.N.Bloxun adına Rusiya Tibb Elmələri Akademiyası Onkoloji Elmi Mərkəzinin) torakal cərrahlıq şöbəsinə elmi ezamiyyətə göndərilib. 1992-ci ilin martın 12-də Bloxin adına mərkəzdə doktorluq dissertasiyası müdafiə edib.

1992-ci ilin mayından sentyabrına qədər Azərbaycan Tibb Universitetinində struktur islahatları gedərkən II ümumi cərrahlıq kafedrası ləğv edilib və A.Qeybulla müvəqqəti olaraq Bakı Travmatologiya və Ortopediya İnstitutunun plastik cərrahlıq və irinli-sümük infeksiyası şöbəsində baş elmi işçi vəzifəsində işləyib.

1992-ci ilin sentyabrından Tibb Universitetin cərrahi xəstəliklər kafedrasına professor vəzifəsinə qəbul edilib. 1993-cü ilin yanvarında bu vəzifəyə müsabiqə yolu ilə seçilib və 2001-ci ilin sonuna qədər həmin vəzifədə işləyib.

2001-ci ildə avtomobil qəzası törətməkdə ittiham edilərək məhkəmə hökmü ilə azadlığı məhdudlaşdırılıb. 2003-cü ilin yanvarında prezident fərmanı ilə əfv olunub.

2005-ci ilin yanvar-fevral aylarında Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Diplomdansonrakı Tibb Təhsili Akademiyasında (MAPO) "Pekonstruktiv, plastik və estetik cərrahlıq" üzrə sikli bitirib.

2005-ci ilin martından sentyabrına kimi «ÖMÜR» özəl-tibb mərkəzində estetik-plastik cərrahlıq şöbəsinə rəhbərlik edib. Daha sonra "Loğmed" özəl klinikanın baş həkimi vəzifəsində çalışıb.

1 elmlər namizədi hazırlayıb. Respublikada ilk dəfə onun rəhbərliyi ilə Azərbaycan Neft Akademiyası və Bakı Dövlət Universiteti ilə müştərək tibdə, xüsusilə də cərrahlıqda kibernetik sistemlərin (diaqnostik ekspert sistemləri, fəsadların və ölüm hallarının proqnozlaşdırılmasının riyazi modelləşdirilməsi) öyrənilməsi üçün mütəxəssislər qrupu yaradılıb. Həmin qrupda doktorluq və namizədlik işləri yerinə yetirilir.

120-dən çox çap olunmuş elmi işi var, o cümlədən 5 monoqrafiya, 1 dərs vəsaiti, 1 dərslik, 1 elmi-kütləvi kitab və 10 metodik tövsiyələr və 2 ixtirası var. Dəfələrlə beynəlxalq elmi-tibbi simpoziumlarda, konqresslərdə, qurultaylarda və konfranslarda məruzə ilə çıxış edib.

Evlidir, iki övladı var.

**R.S.** Gələn həftə - "İpəki" qəzetinin növbəti sayında, biz Şəki seçki dairələrindən deputatlığa namizəd olan digər çəxslər barədə də məlumat verməyə çalışacağıq.

"Ülfət" qəzeti yazır:

## Bizi yaşadan sizsiniz!

"Çox şadam ki, şirkətimizin ən kamil, ən müdrik insanları ilə bir araya gəlmişik. Sizdən biz çox şey öyrənmişik. Bunlardan ən önəmlisi isə çətinliklərə sinə gərmək, Vətənin ən ağır günlərində ruhdan düşməmək, mübarizə aparmaq, yaşamaq eşqini qoruyub saxlamaqdır". "Şəki İpək" Açıq Səhmdar Cəmiyyəti Həmkarlar İttifaqı Komitəsinin sədri



**Sevil İsmayılova** Beynəlxalq Ahıllar Günü münasibətilə keçirilmiş tədbirə bu sözlərlə başladı.

O, Şəkidə ipəkçiliyin bərpasında, inkişafında, müasir dövrdə dünya səviyyəsində tanınmasında veteranların əməyinin əvəzsiz olduğunu söylədi. Dedi ki, biz həmkarlar ittifaqı olaraq sizi həmişə ən qiymətli sərvətimiz, məsləhətlərinizi güvənc yerimiz bilmişik. Sevil xanım müəssisənin yaşlı nəslinə başçılıq etdiyi təşkilatın göstərdiyi mənəvi dəstəkdən, maddi köməkdən də danışdı. Diqqətlərinə çatdırdı ki, komitəmiz həmişəki kimi bundan sonra da üzünüzə açıqdır. Biz sizinlə ünsiyyəti özümüzə şərəf bilirik. O, ahıllara HİK-in hazırladığı hədiyyə zənbillərini təqdim etdi.

Ahıllar da çıxış edərək qayğıya, diqqətə görə minnətdarlıqlarını bildirdilər. "Bizi yaşadan sizsiniz", - dedilər.

Həmkarlar İttifaqı Komitəsi İdarə Heyətinin üzvü, ASC-nin texniki direktoru Şahin Əzizov da ahılları əlamətdar gün münasibətilə təbrik etdi. Onlara ən xoş arzularını bildirdi.

*01.10.10*

## ŞAHNAZ HAŞIMOVA:
## Şəki kələğayılarını çox sevirəm!



**Bir neçə gün əvvəl, məşhur müğənni, F.Əmirov adına Gəncə Dövlət Flarmoniyasının direktoru, Xalq Artisti Şahnaz Haşımova Şəkinin qonağı olmuşdur. Biz onu Şəki "İpək" şirkətinin mağazasında "yaxaladıq"...**

*Bax, səh 4*

# DİGƏR KİV-DƏ YAYILAN XƏBƏRLƏR

www.musavat.com



## ADİL QEYBULLA HAQDA DSK-nın QƏRARI LƏĞV EDİLDİ

### Onun və Rəis Rəsulzadənin namizədliyi qeydə alınıb

"AXCP-Müsavat" seçki blokunun 115 saylı Şəki kənd seçki dairəsindən deputatlığa namizədi Adil Qeybullanın qeydə alınmaması haqqında DSK-nın qərarını dünən Mərkəzi Seçki Komissiyası ləğv edib və Adil Qeybullanın namizədliyinin qeydə alınması barədə qərar çıxarıb.

Dünən 44 saylı Sumqayıt-Abşeron seçki dairəsi isə Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadənin deputatlığa namizədliyini də rəsmən qeydə alıb. 21 saylı Nəsimi birinci seçki dairəsi isə Müsavat Partiyası Gənclər Təşkilatının sədri Tural Abbaslının namizədliyini qeydə almaqdan imtina edib. Müsavat Gənlər Təşkilatından verilən xəbərə görə, polis ekspertinin verdiyi rəyə əsasən təqdim olunan imzalardan guya 48-i eyni şəxs tərəfindən imzalanıb, 6 imza isə seçici imza qoyduğu yerdə tarixdə düzəliş olunub. Tural Abbaslı bu qərardan sabah Mərkəzi Seçki Komissiyasına rəsmi şikayət ərizəsi ilə müraciət edəcək".

Xatırladaq ki, Müsavat Gənclər Təşkilatının deputatlığa namizədlərindən Əhəd Məmmədliyə, Səxavət Soltana, Emin Məmmədova və Yeganə Hacıyevaya da bu cur əsassiz səbəblər göstərərək qeydə alınmadan imtina edilib. Hüquqları pozulan gənc namizədlər də MSK-ya rəsmi şəkildə şikayət ərizəsi ilə müraciət edəcəklər.

**E. Seyidağa**,
*14.10.2010*

www.525.az

## "Parlament –2010" daha iki regionda müşahidəçilər üçün təlimləri başa vurub

"Parlament –2010" seçki monitorinqi koalisiyası daha 2 regionda müşahidəçilər üçün təlimləri başa vurub. Koalisiyanın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, oktyabrın 12-də və 13-də koalisiya üzvləri tərəfindən İsmayıllı şəhərində 85 saylı Şamaxı, 86 saylı İsmayıllı, 88 saylı Göyçay, 90 saylı Ağdaş, 91 saylı Ucar, 116 saylı Qəbələ və Şəki şəhərində 47 saylı Mingəçevir, 109 saylı Balakən, 110 saylı Zaqatala, 112 saylı Qax, 113 saylı Şəki şəhər, 114 saylı Şəki kənd birinci, 115 saylı Şəki kənd ikinci seçki dairələri üzrə müşahidəçilər üçün təlimlər keçirilib. Təlimləri koalisiya üzvləri Aydın Kərimov (Müstəqil-Elmi-Praktik Hüquq Mərkəzi) və Rasim Şərifli ("Azərbaycan-Skandinaviya Əməkdaşlığı" İctimai Birliyi) tərəfindən aparılıb. Təlimlərdə iştirakçılara müşahidəçilərin hüquq və vəzifələri, seçkilərdə müşahidənin aparılmasının beynəlxalq prinsipləri haqqında məlumat verilib, seçki sahəsində beynəlxalq standartlara dair çap materialları və seçki günü müşahidələrin aparılması üçün müşahidə blankları paylanılıb.

*14.10.2010*

www.yenilik.az

## Kütləvi aksiyalar üçün ayrılan yerlər məlum oldu

Parlament seçkiləri ilə bağlı namizədlərin təbliğat-təşviqat kampaniyasında seçicilərlə görüşlərin keçirilməsi üçün ayrılan yerlərin siyahısı açıqlanıb.

Hər seçki dairəsinin ərazisində açıq və qapalı yer müəyyən edilib. 111 seçki dairəsi üzrə müəyyən olunmuş yerlər "Azərbaycan" qəzetində dərc olunub və bu günlərdə Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytına da yerləşdiriləcək. Namizədlərin seçicilərlə görüşləri üçün 114 açıq, 115 qapalı yer müəyyən edilib.

O cümlədən Şəki üçün:

**113 saylı Şəki şəhər:** Şəki "Avtonəqliyyat" ASC-nin həyəti 1800-2000 "Şəki Tütün" ASC-nin akt zalı 200

**114 saylı Şəki kənd:** I Aşağı Göynük kənd klubunun qarşısı 1000-1500 Aşağı Göynük kənd klubu 300

**115 saylı Şəki kənd:** II Baş Zəyzid bələdiyyəsinin inzibati binasının qarşısındakı meydança 1000-1500 Baş Zəyzid bələdiyyəsinin inzibati binasının akt zalı 200

*14.10.2010*

www.azadinform.az



## Yaqub Mahmudov: "Bakı, Gəncə, Dərbənd, Şəki kimi bölgələrə təkcə rayon kimi baxılmamalıdır"

Gələn ilin dövlət büdcəsindən vəsaitlər ayrılarkən Bakı, Gəncə, Şəki və digər bu kimi bölgələrə təkcə rayon kimi deyil, ölkənin həm mədəni, həm də turizm yerləri kimi baxılmalıdır. Bu barədə millət vəkili Yaqub Mahmudov çıxış edib.

Onun sözlərinə görə, büdcədə həmin bölgələrə xüsusi diqqət yetirilməli, sözügedən bölgələrin turizm şəhərləri kimi inkişafına önəm verilməlidir.

"Belə bir diqqət bu kimi regionların beynəlxalq miqyasda nəzərə çarpmasına xidmət edər",-deyə Y.Mahmudov bəyan edib.

**Mübariz Aslanov**
*13.10.10*

www.apa.az

## Şəkidə eramızdan əvvəl XVI XVIII əsrə aid olan kurqanlardakı ekspedisiyanın ilkin nəticələri açıqlanıb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şəki-Qax-Oğuz ekspedisiyası Şəkinin Kiçik Dəhnə kəndinə aid olan Hacınohur, Ceyrançöl düzü ərazisində, Ağdərə Kurqanlar Qrupunda xilasetmə işləri aparır. Ekspedisiya rəhbəri Nəsib Muxtarovun APA-ya verdiyi məlumata görə, ərazinin şumlanması nəticəsində bu ərazidə 2006-cı ildə tapılan e.ə. XVI-XVIII əsrlərə aid 50-dək kurqandan yalnız 3-ü salamat qalıb. Hazırda xilasetmə işlər həmin kurqanlarda aparılır. Hazırda ekspedisiya tərəfindən 3-cü kurqan qazılır. N. Muxtarov 2 kurqandan indiyədək çox maraqlı nəticələr əldə etdiklərini söyləyib: "Birinci kurqanda maraqlı nəticə odur ki, orta tunc dövrünün sonlarına aid bu kurqanda cəsədin özü aşkarlanmayıb. Bu da onu göstərir ki, həmin dövrlərdə də döyüşlərdə, ticarət əlaqələri və s. səbəblərdən dünyasını dəyişənlər üçün rəmzi qəbirlər qazılırdı. Eyni zamandan, buradan tapılan qablar Azərbaycan arxeologiyasının bəzi məqamlarına işıq salır. Qəbirdən çıxan qab-ların hamısı kiçik ölçülü olmaqla bərabər, qır-mızımtıl və boz rəngdədir. Qabların forması və tutumu onu göstərir ki, həmin dövrdə bu ərazi-də maldarlıq çox yüksək inkişaf edib. Həmin kurqan başqa məqamlara da işıq salır. Məlum olur ki, həmin dövrdə Hacınohurda, Ceyran-çöldə xırdabuynuzlu maldarlıq daha çox inki-şaf edib. Ən böyük maraqlı nəticə odur ki, bu kurqanda təsərrüfatın yüksək inkişaf etməsinə baxmayaraq, nə heyvan, nə insana rast gəlinməyib".

N. Muxtarov deyib ki, ikinci kurqanda aparılan qazıntı zamanı yerüstü konstruksiya ilə bağlı maraqlı nəticələr əldə edilib: "İndiyədək Ceyrançöl, Sarcaminbərək, Hacınohur, Ağdərə kurqanlar qrupunda belə konstruksiyaya təsadüf olunmayıb. Bu qəbirlərin həm üstü, həm də plomberxi qum daşı materialındandır. Bu, qeyd olunan ərazidə ilk dəfədir ki, aşkar edilib. Bu kurqanın dəfn çalasını hələ açmamışıq. Ona görə də hələlik oradakı arxeoloji nümunə-lər barədə fikir söyləmək mümkün deyil. Am-ma kurqanın yerüstü konstruksiyası göstəririk ki orta tunc dövründə yüzlərlə kurqan və kur-qan tipli, yəni üstü daşla örtülü qəbirlər olub. Bu isə Azərbaycan və region arxeologiyası üçün maraqlı nəticələrə gətirib çıxara bilər".

**İlhamə İsabalayeva**
*11.10.2010*

www.trend.az

## "Elcell" 2010-cu il oktyabırn 13-də Şəki şəhərin-də "iBurst"şəbəkəsinin ticari istismara verilməsini elan edib

Bu barədə çərşənbə günü şirkətdən verilən məlumatda deyilir.

Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərindən sonra, Şəki respublikada "Elcell" xidmətinin tətbiq edildiyi beşinci şəhər olub.

İndi Şəkinin hər bir sakini cəmi 9 manata şəhərin bütün ərazisi üzrə 2,8 Mbit/s sürətli simsiz İnternetə çıxış əldə edə bilər.

Həmçinin, yaxın günlərdə Şəki şəhəri, M.F.Axundov küçəsi, 4 ünvanında yüksək səviyyəli xidmət göstərməyə imkan verən mərkəz açılacaq.

*13.10.2010*

www.azadinform.az

## Parlament-2010 seçki monitorinqinin regionlara səfərləri davam edir

Parlament-2010 seçki monitorinqi koalisiya üzvləri tərəfindən respublikanın müxtəlif bölgələrində müşahidəçilər üçün təlimlər keçirilib. Koalisiyadan verilən məlumata görə, İsmayıllı şəhərində 85 saylı Şamaxı, 86 saylı İsmayıllı, 88 saylı Göyçay, 90 saylı Ağdaş, 91 saylı Ucar, 116 saylı Qəbələ və Şəki şəhərində 47 saylı Mingəçevir, 109 saylı Balakən, 110 saylı Zaqatala, 112 saylı Qax, 113 saylı Şəki şəhər, 114 saylı Şəki kənd birinci, o cümlədən 115 saylı Şəki kənd ikinci seçki dairələrindəki tədbirlər də bu sıraya aiddir.

Təlimlər koalisiya üzvləri Aydın Kərimov (Müstəqil-Elmi-Praktik Hüquq Mərkəzi) və Rasim Şərifli ("Azərbaycan-Skandinaviya Əməkdaşlığı" İctimai Birliyi) tərəfindən aparılıb.

Təlimlərdə iştirakçılara müşahidəçilərin hüquq və vəzifələri, seçkilərdə müşahidənin aparılmasının beynəlxalq prinsipləri haqqında məlumat verilib, seçki sahəsində beynəlxalq standartlara dair çap materialları və seçki günü müşahidələrin aparılması üçün müşahidə blankları paylanıb.

**Günel Əbilova**
*13.10.10*

www.milli.az

## Şəki şəhərində bədbəxt hadisə baş verib

Daxili İşlər Nazirliyinin saytına istinadən xəbər verir ki, şəhər sakini Ehtiram Naimbəyov Qurcana çayına yıxılıb. Köməksiz vəziyyətdə olan E.Naimbəyov boğulub.

Onu da qeyd edək ki, hadisə baş verərkən mərhum sərxoş olub.

Faktla bağlı araşdırma aparılır.

*11.10.2010*

www.apa.az

## Bakının Xəzər rayonunda intihar hadisəsi baş verib

Bu barədə APA-ya Xəzər rayon Polis İdarəsindən bildirilib.

Hadisə bu gün səhər saatlarında rayonun Binə qəsəbəsində qeydə alınıb. Qəsəbə ərazisində yerləşən südçülük sovxozunda yaşayan, Şəki rayon sakini, 25 yaşlı Mənruz Novruz oğlu Zeynalov özünü asaraq intihar edib. Mərhumun özünə qəsd etməsinin səbəbləri məlum deyil.

Faktla bağlı Xəzər rayon Prokurorluğu tərəfindən cinayət işi qaldırılıb, araşdırmalar davam etdirilir.

Hafiz Heydərov
*11.10.2010*

www.musavat.com

## "AXCP-MÜSAVAT" BLOKU REKLAM QİYMƏTLƏRİNİN ENDİRİLMƏSİNİ TƏLƏBETDİ

### Blokun vahid namizədi Sahib Kərimovun da namizədliyi qeydə alındı

"AXCP-Müsavat" seçki blokunun 113 saylı Şəki seçki dairəsindən namizədi, AXCP sədrinin müşaviri Sahib Kərimovun namizədliyi dünən qeydə alınıb. Dünən qeydə alınmazdan öncə Sahib Kərimov ATƏT-in Bakı ofisində görüş keçirib. S. Kərimovu ATƏT-in Bakı ofisinin siyasi məsələlər üzrə təhlilçisi Marian Qabrel qəbul edib. S.Kərimov müxalifətin üzləşdiyi qanun pozuntuları barədə ətraflı məlumat verib. ATƏT nümayəndəsi 113 saylı Şəki şəhər seçki dairəsini xüsusi nəzarətdə saxlayacaqlarını bildiriblər.

"AXCP-Müsavat" siyasi partiyalar bloku 73 saylı Lənkəran şəhər seçki dairəsində baş verən qanun pozuntuları və blokun namizədi Yadigar Sadıqovun Lənkəran Dövlət Universitetindəki işindən çıxarılmasına etiraz bəyanatı verib. Bəyanatda bildirilir ki, məzuniyyətdən qayıdarkən Yadigar Sadıxova əmək müqaviləsinin ləğv edilməsi və əmrin surətinin verilməməsi kobud qanun pozuntusu olmaqla siyasi məqsəd daşıyır, bunlar onun müxalifət blokunun namizədi olması motivindən doğur: "Lənkəran Dövlət Universitetinin rəhbərliyinin bu addımı insanların bərabərlik hüququnu pozmaqla cinayət məsuliyyəti yaradır".

"AXCP-Müsavat" blokunun reklam qiymətlərinin ölkə reallıqlarına uyğun olmaması ilə bağlı da bəyanat yayıb.

Bəyanatda deyilir: "AXCP və Müsavat partiyalarının birliyindən və bu birliyin doğurduğu effektdən təşvişə düşən hakimiyyət seçki prosesində qanunsuz əməllərini daha da artırmaqdadır.

Hakimiyyət bir tərəfdən bütün vasitələrlə "AXCP-Müsavat" siyasi partiyalar blokunun namizədlərinin sayının maksimum azaldılmasına və bu yolla bloku pulsuz efir vaxtından, seçicilərlə televiziya vasitəsilə təmasdan məhrum etmək, digər tərəfdən, pullu efir vaxtından istifadə imkanlarını da məhdudlaşdıraraq, bütövlükdə kampaniya dövründə müxalifəti təbliğat-təşviqatdan kənarda qoymaq siyasəti yürüdür.

İctimai Televiziyanın və digər telekanalların seçki reklamı üçün yüksək qiymətlər müəyyənləşdirməsi buna bariz nümunədir. Ölkədə sosial vəziyyətin gərgin olduğu, siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilmədiyi, müxalifətin maliyyə imkanlarından tamamilə məhrum edildiyi bir şəraitdə seçki reklamının qiymətlərinin yüksək səviyyədə müəyyənləşdirilməsi ölkə reallıqlarını əks etdirmir və müxalifətin, eləcə də ölkə reallıqları ilə yaşayan digər namizədlərin televiziyada təbliğat imkanlarının faktiki olaraq heçə endirilməsidir".

"AXCP-Musavat" bloku hesab edir ki, reklam qiymətlərinin yüksək səviyyədə müəyyənləşdirilməsi seçkilərdə namizədlərin bərabər imkanlar prinsipini və konstitusiya normalarının tələblərini kobud şəkildə pozulmasıdır. Blok reklam qiymətlərinin aşağı endirilməsini, bu qiymətlərin ölkə reallıqlarına və namizədlərin maliyyə imkanlarına uyğunlaşdırılmasını tələb edir.

Dünən günün sonunda "AXCP-Müsavat" seçki blokunun 33 saylı Xətai Seçki Dairəsindən vahid namizədi, AXCP sədrinin müavini Fuad Qəhrəmanlının da namizədliyi qeydə alınıb.

**E. Seyidağa**,
*10.10.2010*

www.trend.az

## Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə 337 min manat məbləğində kredit verilib

Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu cümə günü sahibkarlığın inkişafına dövlət dəstəyinin həyata keçirilməsi, sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi və onların maarifləndirilməsi məqsədilə Qax rayonunda "Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi" mövzusunda tədbir keçirib. Tədbirdə Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən 300-dən çox sahibkar iştirak edib. Bu barədə cümə günü nazirliyin məlumatında deyilir.

Tədbir çərçivəsində Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti hesabına Qax rayonunda mineral sular istehsalı ilə məşğul olan "Kapital-N" firmasının fəaliyyətinə və Şəkidə sahibkar Rafiq Rəhimovun inşa etdirdiyi mehmanxana kompleksində aparılan tikinti işlərinə baxış keçirilib.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev Fondun fəaliyyəti və güzəştli kreditlər hesabına bölgələrdə həyata keçirilən layihələr barədə məlumat verib. Qeyd edilib ki, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, Sahibkarlığa Kömək Milli Fondu yeni yanaşma prinsiplərini davam etdirərək bu yaxınlarda intensiv bağçılığın və tingçiliyin inkişafı üzrə investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə sahibkarlıq subyektlərindən təkliflərin qəbulunu elan edib. Sahibkarlıq subyektlərindən müvəkkil kredit təşkilatları vasitəsilə təkliflərin qəbulu oktyabrın 21-də başa çatacaq. Qax rayonunda fəaliyyət göstərən sahibkarlara investisiya təkliflərinin verilməsi prosesində aktiv iştirak etmələri tövsiyə olunub.

Tədbir çərçivəsində həmçinin, sahibkarlar üçün treninq keçirilib. Treninqdə biznes ideyalarının formalaşdırılması, investisiya layihələrinin hazırlanması və təqdim edilməsi qaydaları barədə ətraflı məlumat verilib, güzəştli kreditlərin əldə olunması proseduru, sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsinə dair minimal tələblər və müvəkkil kredit təşkilatları barədə məlumatları əks etdirən broşürlər, investisiya layihələrinin (biznes-planların) hazırlanmasına dair tövsiyə xarakterli materiallar təqdim edilib.

Tədbirin sonunda müvəkkil kredit təşkilatları vasitəsilə Qax və ətraf rayonlarda fəaliyyət göstərən 24 sahibkarlıq subyektinə 337 min manat güzəştli kreditlər verilib. Bu kreditlər hesabına 57 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

**N.İsmayılova**
*01.10.2010*

www.trend.az

## İsmayıllı rayon icra başçısı müavininin sürücüsünün meyidi meşədən tapılıb

İsmayıllı Rayon Prokurorluğundan çərşənbə axşamı Trend-ə verilən məlumata görə, 28 yaşlı Vüqar Ağayevin meyidi Qaraməryam-İsmayıllı-Şəki magistral yolunun 32-ci kilometrliyində, rayonun Xənəyə kəndi ərazisində - yoldan 100-150 metr kənarda meşəlikdə aşkar olunub.

Onun alnında güllə yarası aşkar edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb, istintaq aparılır.

Məlumata görə, Ağayev İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəfael Əhmədovun sürücüsü olub.

**K. Zərbalıyeva**
*05.10.2010*

www.anspress.com

## Bakıda iki yanacaqdoldurma məntəqəsinə basqın olub

Bakıda yanacaqdoldurma məntəqəsinə basqın olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, "VAZ-2107" markalı 10 CL 277 dövlət nömrə nişanlı avtomobildə olan 3 naməlum şəxs, Nizami rayonunda yerləşən yanacaqdoldurma məntəqəsinə girərək orada operator işləyən, Şəki rayon sakini, Vüsal Xamməddzadənin əlindən 280 manat pulunu alaraq hadisə yerindən qaçıblar.

Bundan başqa həmin şəxslər Moskva prospektindəki Yanacaqdoldurma Məntəqəsinə gəlib orada operator işləyən, Natiq Babayevdən də 700 manat pul alıblar.

İlkin araşdırma zamanı məlum olub ki, qeyd edilən dövlət qeydiyyat nişanı "Shevrolet-Covaler" markalı avtomaşına, avtomaşın isə Bakı şəhər sakini, Qəniyev Əlibala Oqtay oğluna məxsusdur.

Hər iki faktla bağlı müvafiq rayon polis idarələrində araşdırma aparılır.

*05.10.2010*

www.trend.az

## Şəkidə "Çirkli pulların yuyulması və terrorçuluqla mübarizə" mövzusunda seminarlar

Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti "Azərpoçt" MMC ilə birgə oktyabrın 4-5-də Gəncə və Şəkidə "Çirkli pulların yuyulması və terrorçuluqla mübarizə" mövzusunda seminarlar keçirib. Bu barədə çərşənbə günü Xidmətdən verilən məlumatda deyilir.

Seminarlarda bu regionlarda fəaliyyət göstərən bank nümayəndəlikləri və filialları, bank olmayan kredit təşkilatları və maliyyə xidməti göstərməyə icazəsi olan poçt müəssisələrinin nümayəndələri iştirak ediblər.

Seminarlar zamanı Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə sahəsində milli qanunvericiliyin tətbiqi üzrə təqdimat keçiriblər, həmçinin, maliyyə institutları tərəfindən müvafiq qanunvericiliyin tətbiqi ilə bağlı digər məsələlərə baxılıb.

**A.Axundov**
*06.10.2010*

www.riyadmedia.com

## Şəki və Xaçmazda 3 əxlaqsızlıq yuvası aşkarlanıb

Əxlaqsızlıq yuvası təşkil etmiş 3 nəfər şəxs tutulub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, DİN İnsan Alverinə Qarşı Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində Şəki rayonu ərazisindəki "Sürücü" kafesində əxlaqsızlıq yuvası təşkil etdiyinə görə Qaraqoyunlu kənd sakini İman Süleymanov, Xaçmaz rayonu ərazisindəki "Malibu" İstirahət Mərkəzində əxlaqsızlıq yuvası təşkil etdiyinə görə Seyidli kənd sakini Nurvan Nudurəliyev, Xaçmaz rayonu ərazisindəki "Obel-Lux" İstirahət Məkəzində əxlaqsızlıq yuvası təşkil etdiyinə görə oranın işçisi, Bakı şəhər sakini Elməddin Məhərrəmov tutulublar.

Hər üç faktla bağlı cinayət işləri başlanıb, istintaq aparılır.

*30.09.2010*

**Şəki sənətkarları** *1885-ci il*



Professor Qüdrət Əbdülsəlimzadə, Zənqərəboğlu Xəlil və Kazım Məmmədov Şəkidə; 2010



# Kobud qanun pozuntularına yol verən hakimlər

*"İpəkçi" qəzeti son 1 il ərzində Azərbaycan Respublikası Məhkəmələrində baxılan işlər üzrə monitorinq keçirmiş və heç bir mübahisə doğurmayan şəraitdə, açıq-aşkar qanun pozuntularına yol vermiş bəzi hakimləri müəyyənləşdirmişdir:*

## 1.Sabunçu rayon məhkəməsinin hakimi Samir Əliyev



– o, səlahiyyəti olmadığı halda, Sabunçu rayon məhkəməsində ağır cinayət işinə baxmış, adam öldürməyə cəhd edən və qurbanını ölümcül yaralayan cinayətkarı, 1 aylıq məcburi müalicəyə göndərmək şərti ilə cinayət məsuliyyətindən azad etmiş (10.12.2009) və bu zaman, zərər çəkmiş tərəfin hüquqlarını da kobud surətdə pozmuş, zərər çəkmiş tərəfin apelyasiya şikayəti verməməsi üçün hətta məhkəmənin yekun qərarını belə ona göndərməmişdir (iş №1 (008)-438\2009)!

## 2.Sabunçu rayon məhkəməsinin hakimi Anar Qasımov



– o, Sabunçu rayon məhkəməsinin hakimi Samir Əliyevin çıxardığı yekun qərardan apelyasiya şikayəti olmasın deyə (məhkəmədə qəbul olunmuş qərar 3 gün tərəflərə göndərməlidir) onu zərər çəkmiş tərəfə göndərməməsi, zərər çəkmiş tərəfin apelyasiya müddətində apelyasiya şikayəti edə bilməməsi ilə əlaqədar, apelyasiya müddətinin bərpa edilməsi barədə zərər çəkmişin heç bir mübahisə doğurmayan, haqlı vəsatətini rədd etmişdir (30.08.2010). Maraqlıdır ki, bu hakim vəsatətin rədd edilməsi barədə çıxardığı qərarda, vəsatətin rədd edilməsini hüquqi cəhətdən əsaslandırmaq üçün, yalnız cinayətkarın atasının fikrinə istinad etmişdir; cinayətkarın atası dedi ki, "vəsatət əsassızdır, rədd olunmalıdır!" ona görə də vəsatəti rədd edilik!?

## 3.Bakı Apelyasiya Məhkəməsinin hakimi Qail Məmmədov



Respublikada kifayət qədər tanınmış, kifayət qədər təcrübəsi olan bu hakim, Sabunçu rayon məhkəməsinin hakimi Anar Qasımovun çıxardığı 30.08.2010 tarixli qərarı qüvvədə saxlamaqla, heç bir mübahisə doğurmayan şəraitdə, açıq-aşkar qanun pozuntusuna yol vermiş və məlum işin (iş №1 (008)-438\2009) faktiki hallarının müəyyən edilməsinin, habelə cinayət qanununun və Cinayət Prosessual Məcəlləsinin normalarının tətbiq edilməsinin düzgünlüyünün yoxlanılmasının qarşısını almağa şalışnış və yol verilmiş saxtakarlıqlara göz yummuşdur. Halbuki, CPM-nə görə məhkəməni təşkil edən tərəflərin, məhkəmənin yekun qərarından apelyasiya şikayəti vermək hüquqları var və bu şikayəti edə bilmək üçün də məhkəmə çıxardığı qərarı 3 gün ərzində tərəflərə göndərməlidir. Əgər məhkəmə, yekun qərarı 3-gün ərzində hansısa tərəfə göndərməyibsə və bunun nəticəsində həmin tərəf apelyasiya şikayəti edə bilməyibsə, bu qəbil hallarda, həmin tərəfin apelyasiya müddətinin bərpa edilməsi barədə vəsatəti avtomatik olaraq təmin edilməli idi...

**R.S**. *Şəkillər, Sabunçu Rayom Məhkəməsinin və Bakı Apelyasıya Məhkəməsinin veb-saytından götürülmüşdür*

*"İpəkçi"nin çıxışından sonra*

## Çingiz Vəli oğlu Cumayevin 1000 manatını veriblər

Qəzetimizin 2 iyun 2010-cu il tarixli sayında, Şəki şəhər 4-cü rayon, Giləkli küçəsi, ev 3 də yaşayan oxucumuz – Çingiz Vəli oğlu Cumayevin bir şikayət məktubunu dərc etmişdik. O yazırdı ki, başçılıq etdiyi 15 nəfərdən ibarət briqada, Şəki şəhəri və İsmayıllı şəhər məşğulluq idarələri tərəfindən işə cəlb edilmiş və onlar İsmayıllı şəhərindəki istirahət parkının qala divarının tikintisində işləmişlər, lakin zəhmətlərinin müqabilində, əmək haqlarını – 5723 manatı ala bilmirlər.

Biz onun məktubunu "İpəkçi"də dərc etməklə yanaşı, həm də 04.06.2010 tarixdə, həmin məsələ ilə bağlı İsmayıllı rayon icra hakimiyyəti başçısı Nizami Əkbərov cənablarına da məktubla müraciət etdik. İsmayıllı rayon icra hakimiyyətindən isə bizə, 29 iyun 2010-cu il tarixdə Memarlıq və Tikinti şöbəsinin müdiri Mirələsgər Seyidov rəsmən cavab verdi ki, "İşçilərin əmək haqlarının bir hissəsi ödənilmiş, bir hissəsi maliyyə çətinliyi ilə əlaqədar ödənilməmişdir. Əmək haqqının qalan hissəsi yaxın vaxtlarda ödəniləcəkdir".

Bir-neçə gün əvvəl isə şikayətçi – Ç. Cumayev redaksiyamızda olmuş və 5723 manatdan artıq 1000 manatın ona ödənildiyini bildirmiş və buna görə "İpəkçi" qəzetinə təşəkkür etmiş və bu qəzet vasitəsi ilə həm də İsmayıllı rayon icra hakimiyyəti başçısı Nizami Əkbərov cənablarına da onun təşəkkürünün çatdırılmasını istəmişdir.

Ümid edirik ki, Ç. Cumayev tezliklə, yerdə qalan 4723 manatını da alacaqdır.

## Dağılan yerə pərdə asdılar!?

"İpəkçi"nin 28 aprel 2010-cu il tarixli sayında, Şəki şəhərinin mərkəzində – M.Rəsulzadə prospektində, bir evin qəzalı vəziyyətdə olmasını əks etdirən fotoşəkil dərc etmişdik. Həmin ev hələ təmir edilməsə də dağılan yerlər pərdə ilə örtülmüşdür:



*Fətəli xan Xoyski-135*

# "MÜHACIRƏT"DƏ OLAN QƏBİRLƏR

**09.12.2007-ci il tarixdə, 20.00 və 23.00-radələrində "Azadlıq" radiosunun "İz" Mədəniyyət proqramında, aparıcısı Sevda xanım, "İpəkçi" və"Şəkinin səsi" qəzetlərinin redaktoru Aydın Məmmədov, Xarici İşlər Nazirliyi Dövlət Protokolu İdarəsinin rəisi, həm də qərərgahı Lüksembruqda yerləşən Əsilzadələr Cəmiyyətinin "Almanach.be" veb-saytı redaksiyasının üzvü Pərvin Mirzazadənin iştirakı ilə Fətəli xan Xoyskinin anadan olmasının 132-ci ildönümü münüsibəti ilə canlı efirdə maraqlı diskusiya aparılmışdı. Həmin söhbətin stenogramı ilk dəfə olaraq mətbuatda – "İpəkçi" qəzetində, dərc olunur:**

***"Azadliq" radisunda izə düşmümüşük. Efirdə "İz" Mədəniyyət proqramı. Bu proqramda Fətəli xan Xoyski kimdir sualının izinə düşəcək, Xan Xoyskinin nəsil ağacını yada salacaq və hər dəfə tədqiqatçılar Pərvin Mirzəzadənin və Aydın Məmmədovun açıqlamalarını eşidəcəksiniz. "Azadlıq" radiosunun dinləyicisi Aydın Məmmədovun radioya bir məktubu bu işin ana mövzusunu müəyyənləşdirdi. Məktub, əslində məqalə, "Bir qəbir kitabəsinin izi ilə, yaxud Fətəli xan Xoyskinin əsli-nəcabətinə dair tarixi faktlar" adlanırdı, o Fətəli xanın ki, bu il dekabrın 7 də, 132 yaşı tamam olur. Bu həftə, amma 89 il öncə, dekabrın 7-də Azərbaycan Demokratik respublikasının parlamenti öz açılış iclasını keçirir. Fətəli xan xoylunun, o dönəmlərin deyimi ilə Xan Xoyskinin həm də o ildən xatırladır və doğrulara yetişmək üçün yanlışlara da açıq olan bu proqramı hazırladıq. "Azadlıq" radiosunun iki dinləyicisi, peşəkar diplomat Pərvin Mirzəzadə və "Şəkinin səsi" qəzetinin və eyni adlı internet saytının redaktoru Aydın Məmmədov Azərbaycan Demokratik Respublikasının ilk hökumət başçısı Fətəli xan xoylunun şəcərəsi barədə fakt və ehtimalları "Azadlıq" radiosu ilə paylaşırlar.***

**Sevda İsmayıl:** Xoş gördük Pərvin bəy.

**Pərvin Mirzəzadə:** Salaməleyküm.

**Sevda İsmayıl**: Xoş gördük Aydın bəy. Aydın bəy, Fətəli xan xoylunun – Xoyskinin şəcərəsini öyrənmək nə ilə bağlıdır ki, bu nəyə işıq salır ki?

**Pərvin Mirzəzadə:** Ümumiyyətlə, Fətəli xan Xoyski Azərbaycanın tarixində çox böyük bir insan olub. Onun həm Azərbaycanın müstəqilliyindən öncə, yəni 20-ci əsrin əvvəli böyük xidmətləri olub, yadımızdadır ki Fətəli xan Xoyski həm Rusiya dumasının üzvü idi, həm yüksək vəzifələr tutub, o zaman Rusiya administrasiyasında, hətta Azərbaycanın, ilk müstəqil Azərbaycan respublikasının ilk baş naziri olub, ilk xarici işlər naziri olub, həm də böyük bir nəslin nümayəndəsidir. Və xoyski nəslinin, Azərbaycan tarixində xüsusi bir yeri var. Bildiyiniz kimi omun atası general-leytenant olub, rus ordusunun. Onun babası general-mayor olub rus ordusunda. Xan xoyskinin bir nəsli də əvvəl Xoy xanlığında, sonra da Şəki xanlığında hökmdar olub. Əvvəl Xoydan onlar 19-cu əsrin əvvəli Şəkiyə köçüb və Şəkidə Səlim xan Şəkinski, ruslar onu uzaqlaşdırır, xanlığından uzaqlaşır, ruslara qarşı qiyam qaldırır və xoyki nəsli Şəkiyə hökmdar gətirilir. [Xoskilərdən] ilk Şəki xanı Cəfərqulu xan xoylu, yəni Xoyski, yeni bir şəcərə orada yaradır.

**Aydın Məmmədov:** [Sovet] hakimiyyətinin son illərində Azərbaycan Demokratik Respublikasına və onun yaradıcılarına diqqət artdı, Fətəli xan Xoyskinin öyrənməyə başladılar. İlk qəzet məqaləsi idi, "Ədalət"də çıxdı, bundan sonra Ziya Bünyatov – Mövsüm Əiiyevin bir kitabçası çıxdı, bundan sonra "Dirçəliş 20-ci əsr" jurnalında çıxdı, amma məsələ burdadır ki, orda, heç birində Fətəli xan Xoyskinin babası düzgün göstərilmədi. Yazırdılar ki, (Fətəli xan Xoyskinin atası) İsgəndər xan, şəkili İsmayıl xanın oğludur. Mən də dəqiq bilirdim ki, İsmayıl xanın oğul evladı olmayıb, ona görə də Şəki xanlığını ləğv etmək ruslar üçün bəhanə oldu. Mən bunu araşdırmaq üçün arxivlərə müraciət etdim, Dövlət Arxivində işlədim, nəhayət, Fətəli xan Xoyskinin babası, yəni İsgəndər xan Xoyskinin atasının Kəlbəli bəy olduğunu öyrəndim, sonra o, [Kəlbəli bəy, sonra] general-mayor rütbəsinə layiq görülmüşdür. Kəlbəli bəy olduğunu öyrənə bildim, iki arxiv sənədi əsasında. Bu məqaləm "Elm" qəzetində çıxdı, Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" qəzetində çıxdı. Elə həmin il, 2002-ci ildə, mən həm də internetdə gördüm ki, Pərvin Xəyyam oğlu Mirzəzadə, ingilis dilində bir sayt var, "Almanach.be", səhv etmirəmsə, yəni o da mənimlə paralel şəkildə, mənimlə bir yerdə bu nəticəyə gəlib ki, Fətəli xan Xoyskinin babası Kəlbəli bəydir. Amma mən öyrənə bilmədim ki, Pərvin Xəyyam oğlu kimdir, bu nəticəni haradan alıb, hansı arxiv sənədlərinə müraciət edir, çünki mən bütün arxivləri, bütün kitabları araşdırdım, heç yerdə Pərvin Xəyyam oğlu – Mirzəzadənin əldə etdiyi mənbəni tapa bilmədim.

**Sevda İsmayıl:** Amma "Azadlıq" radiosunun "İz" mədəniyyət proqramı öyrəndi və tapdı Pərvin bəri, Pərvin bəy, – müraciət edir, Pərvin bəy?

**Pərvin Mirzəzadə:** Bəli, bəli.

**Sevda İsmayıl:** İngilis dilində, üstəlik pullu bir saytda belə bir cədvəli əks etdirmək təşəbbüsü nədən irəli gəldi sizdə?

**Pərvin Mirzəzadə:** Təxmini bir 5 il bundan qabaq, mən işdə Qarabağla bağlı saytları axtarırdım, xüsusən, mən maraqlanırdım ki, qərb dövlətlərində, Qarabağa aid saytlarda nə təhər göstərilir, Qarabağ kimə aiddir, kimdir, nədir? Təsadüfən, "Almanach.be" saytı tapdım, gördüm ki yazırlar ki, Qarabağ ermənilərə məxsusdur, Qarabağ, Ermənistandır, Qarabağ qədim erməni torpağıdır... Mən onlara bir məktub yazdım, e-maillə göndərdim ki, siz səhv yoldasız, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, Qarabağ tarixən, Azərbaycanın tərkibində olub, Qarabağ xanlığında Cavanşır nəsli uzun müddət [hakimiyyətdə] olub, oradan da mənə o saytın redaktoru, admin, "Remil" adında bir adam məktub yazdı, üzr istədi, dedi ki, "bilirsiniz, bizdə xəbər yoxdur bu barələrdə, nə Azərbaycandan, nə Qarabağdan", - xahiş elədi məndən ki, mən onlara məlumat göndərim. Sayt çox maraqlıdır. Sayt nəyə həsr olub? Sayt həsr olunub, Avropadan başqa, başqa dünyada, başqa qitələrdə, hansı monarxiya dövlətləri mövcuddur və hansı sülalələr orda hökmdar olub və ya da hal-hazırda hökmdarlıq edir. "Almanach.be"çox maraqlıdır və əvvəl pulsuz idi. Və mən onlara çox məlumat göndərdim, Azərbaycan xanlıqları ilə bağı, Azərbaycan sultanlıqları ilə bağlı, Azərbaycanın hansı xanlığında, həm şimalda, həm cənubda. Ondan sonra mənə də maraqlı oldu və mən başladın araşdırmalara. Sözsüz ki, bilirsiz ki, mən dövlət məmuruyam, mənim o qədər də vaxtım olmur. Mən nə ilə məşğul oldum? Mən vaxtım olanda arxivlərə müraciət edirdim, başqa məqalələrdən bunu öyrənirdim... Və yavaş-yavaş, yavaş-yavaş, bəzi ailə üzvlırindın, məsələn, xoyskilərin ailə üzvlərindən məlumat alırdım. Ya da cavanşir ailə üzvlərindən məlumat alırdım, toplayırdım, toplayırdım, toplayırdım, toplayırdım, nəhayət, həmin bu veb-saytda, indi bütün Azərbaycan xanlıqlardan məlumat var, oradakı sülalələrdən də məlumat var. İndi bəzilərindən daha ətraflı, bu Naxçıvan xanlığına aid, ya da Xoy xanlığı, Cavanşirlər xanlığına, yəni Qarabağ xanlığına aid, bəzilərinə də daha qısa şəkildə, ona görə ki, mənim Urmiyədən, ya da Ərdəbildən daha çox məlumatım yoxdur...

**Sevda İsmayıl:** Mən indi soruşmaq istəyirdin sizdən, sizin bu axtarışlarınız nəyi üzə çıxartdı, hansı sualları daha çox qabartdı?

**Pərvin Mirzəzadə:** İlk öncə mənə çox maraqlı gəldi ki, Azərbaycan Rusiyanın tərkibində olanda 100-ə qədər adam Rusiya ordusunun yüksək rütbəli zabitləri olub, bu bir, general rütbəsinə çatıb, bu bir. İkincisi, doğrudan da hərdən-birdən məlumat toplayanda, öyrənirəm ki, filankəs filan Sankt-Peterburq universitetini qurtarıb, ya da Kiyev Universitetini qurtarıb, maraqlı insanlar olub, ziyalılar olub, onları qısa tərcümeyi-hallarını oxuyanda çox maraqlı şeylərə rast gəlirsən ki, bu adamlar çox yüksək mədəniyyətə malik bir insanlar idi, həm vəzifə tutublar, həm şair olublar, həm müəllim olublar... Təəssüflər olsun ki, 1920-ci ildən, onların əksəriyyətini 37-ci ilə qədər güllələyiblər, bəziləri də Azərbaycandan qaçıb, mühacirətdə yaşayıb, çox maraqlı bir fakt gətirim, bizim Macarıstandakı səfirimiz Həsən Həsənov, sizin yadınızdadır, 92-ci ildən Azərbaycanın BMT-dəki ilk nümayəndə təyin olunmuşdur, Nyu-Yorka gələndə, o, təsadüfən, Zahid xan Xoyski ilə rastlaşıb. Həsən müəllim ora gələndə, o mənə danışıb və Zahid xan Xoyskini tapıb. Zahid xan Xoyski Fətəli xan Xoyskinin qardaşı oğludur. O çox maraqlıdır, Zahid xan Xoyski Azərbaycandan uşaqlıqda Türkiyəyə, Türkiyədən Polşaya, Polşadan sonra Amerikaya, onun yoldaşı polşalı olur, onun qızı, bildiyimə görə Yeganə xanımdır adı, Nyu-Yorkda yaşayır... Həsən müəllim çox maraqlı bir şey danışdı ki, mən ona Zahid bəy dedim, dedi "çox üzr istəyirəm, mən bəy deyiləm, mən xanam!". Bəli, bu bir. İkincisi də çox maraqlı başqa bir fakdır, nə təhər mən məlumat topamışdım, anamın uşaqlıqda qonşuları, Fətəli xan Xoyskinin uşaqları olub. Onlar indiki İstiqlaliyyət küçəsində, o vaxtkı Kommunist küçəsində, "İsmayılıyyə" binası ilə üzbəüz, ruslar demişkən, "İtalyanskiy dvorets", kommunal mənzillər olan bir həyətdə yaşayırdılar və anamım qonşuları, Fətəli xan Xoyskinin oğlu olub və mənim anam onun qızı ilə dostluq eləyib. Yəni Fətəli xan Xoyskinin nəvəsi ilə dostluq eləyib. Və anam danışır ki, onlar çox ağır şəraitdə yaşayıblar, bir otaqda, bir-neçə nəfər, Fətəli xan Xoyskinin oğlu şofer olub, ali təhsilə, yadınızdadır ki 30-cu illərdə əsilzadə [sinfinə] aid olan nəsillər müəyyən hüquqlardan məhrum olunmuşdular, o cümlədən ali təhsil hüququndan, o şofer olub, yəni nə təhər əziyyət ilə yaşayıblar, Fətəli xan Xoyskinin bilirsiniz də, yoldaşı rus olub, Yevgeniya xanım, amma o, Fətəli xan Xoyski ilə evlənəndə müsəlmançılığı qəbul edib və adını Ceyran xanım qəbul edib və çox maraqlıdır ki, Fətəli xan Xoyskinin qızı olub Tamara xanım, Tamara xanımın əri böyük bir bolşevik olub, o adam həm Azərbaycan Sovet Sosialist Respublikasının Xarici İşlər xalq komissarı olub, ondan sonra Tacikistanda Kommunist partiyasının 1-ci katibi olub və 37-ci ildə onu güllələyiblər. Yəni bilirsiniz, bunlar çox maraqlı bir insanlardı, sözsüz ki, mənim çox vaxtım yoxdur ki arxivlərdə zad işləyim, yəni oturum, mənim əsas istəyim, [bu ki,] mən toplanmış məlumatı ingilis dilinə tərcümə edim və həmin veb-sayta göndərim ki, bu veb-saytı idarə edən insanlar bunu yerləşdirsinlər öz saytlarına, on görə bu çox vacibdir...

**Aydın Məmmədov:** Pərvin bəy üzr istəyirəm, bu Zadəganlar saytıdır, Belçikanın saytıdır, eləmi?

**Pərvin Mirzəzadə:** Belçikanın... indi Lüksemburqdadır və onun bir idarə heyəti var, idarə heyətindən başqa bunun bir redaksiya heyəti var, mən onun redaksiya heyətinin üzvüyəm...

**Aydın Məmmədov:** Pərvin bəy, üzr istəyirəm, eşitmişəm ermənilər şikayət ediblər ora, bəs, bizim adımız yoxdur, ermənilərin adı yoxdur orada, onlar da cavab veriblər ki, "sizin nəslinizdə dvoryan yoxdur axı, zadəgan yoxdur, siz həmişə onun-bunun torpağında yaşamısınız", – yəni ermənilərin orada elə bir şəcərəsi yoxdur, çünki onlarda zadəganlar olmayıb. Düzdür? Belə şey olub?

**Pərvin Mirzəzadə:** Ermənistana aid 2 dənə məqalə var, biri İrəvan xanlığı, onun müəllifi mənəm və İrəvanski ailəsinə, bildiyiniz kini Qacarın bir qolu İrəvan xanlığında hökmdar olub, Rusiya 1828-ci ildə İrəvanı tutandan sonra, onların bəzi ailə üzvləri İrana köçüb, başqaları İrəvanda qalıb və İrəvanski familiyası ilə, "ханы Еревански" (yəni İrəvən xanları) familiyası ilə orada yaşayıblar, Azərbaycanda yaşayıblar, Naxçıvanda yaşayıblar, bir. İkinci məqalə də erməni kilsəsinə aiddir. Vəssalam. Mən ümumiyyətcə, [qeyd edim ki], tarix eləcədir, tarix faktdır! [Bugünkü] Ermənistanın ərazisində Azərbaycan dövləti – İrəvan xanlığı, olub və zadəganlar, sözsüz ki, əsilzadələr, zadəganlar orda azərbaycanlılar olub. İrəvan xanları, Naxçıvan xanları, Maku xanları və sairə. Yoxdur orada, ermənilər şikayət eləyib və sözsüz ki saytın rəhbərliyi, ya da mən yox, idarə heyəti, mən o məsələyə müdaxilə etməmişəm, onlar özləri onlara cavab veriblər, ondan sonra da nəyi cavab veriblər, mənə göndəriblər, bir aydan sonra, bu yadımdadır ki 2003-cü ildə.

**Aydın Məmmədov:** Pərvin bəy, məsələ burasındadır ki, mən nə qədər də araşdırsam, yenə Fətəli xan Xoyskinin anasının adını tapa bilmədin. O barədə nə bilirsiniz?

**Pərvin Mirzəzadə:** Deyilənə görə, onun atasının – İsgəndər xanın, iki dənə arvadı olub, biri öz əmisi qızı, biri də Şəkidən olan bir xanım. Təəssüflər olsun heç bir sənəddən mən bilmədim ki onun anası öz atasının əmisi qızıdır, yoxsa da bu Şəkidən olan qadın olub. Bilirsiniz nə təhərdir, mən deyə bilmərəm ki mən orijinalam, məndən başqa yoldaşlar da var bu işlə məşğuldurlar. Ən dəqiq məlumat, ola bilər ki, Tiflisdə ola bilər. Nəyə görə? Bildiyiniz kimi o vaxtı Qafqaz Komissiyası Tiflisdə oturub və bütün məlumatlar ora toplanırdı. Düzdür, məşhur bir "Aktı Kavkazskiy Arxeoqrafiçeskoe Komissiiy" var, orada da bəzi məlumatlar var, hətta siz deyən kimi, [xoyskilərdən] 2-ci Şəki xanı, yəni İsmayıl xanın [oğlan] uşaqları olmayıb, doğrudan da belə bir fakt orada göstərilir ki, ruslar xoyski nəslindən Şəkini alırlar və ona istinad edirlər ki, İsmayıl xan ölür və onun oğlu olmur. 3-cüsü də, bilirsiz ki, Azərbaycanda genealogiya ilə məşğul olan bir cəmiyyət var və oranın üzvləri də məşğul olurlar bu məsələlərlə, onları – bəzi məlumatları xoyski ailəsi ilə bağlı, həmin bu topludan mən götürmüşəm.

**Aydın Məmmədov:** Pərvin bəy, sizin necə fikriniz var, Fətəli xan Xoyskinin qəbrini Bakıya köçürmək məqbuldu ya yox, indiki dövrdə? Təsəvvür edin ki, Bakının tən ortasında Stepan Şaumyanın qəbri var! Rəsmən qəbri ordadır! Necə fikirləşirsiniz Şaumyanın qəbri Bakıda, Fətəli xan Xoyski, Azərbaycan Demokratik Respublikasının yaradıcıları[ndan biri], görkəmli dövlət xadimnin qəbri Tiflisdə. Necə fikirləşirsiniz, onu gətirmək lazımdır, ya yox?

**Pərvin Mirzəzadə**: Bilirsiniz, məndən olsa tək Fətəli xan Xoyskini yox, digər[lərini də gətirmək lazımdır, deyərdim, məsələn,] Topçubaşovun qəbri Fransada, Nəriman Nərimanovun qəbri Moskvada... Bəzən ölüyə toxunmaq olmaz. Sözsüz ki pis olmaz, düzü. Amma bu məsələni nə mən, nə siz nə də başqaları [həll edə bilmərik,] mən təşəbbüs edirəm ki, həm bizim din nümayəndələrimiz, həm bizim ziyalılarımız otursunlar bir ortaq məxrəcə gəlsinlər. Yəni mənim bu məsələdə fikrim subyektiv ola bilər. Bu məsələyə toxunanda, mən tək Fətəli xan Xoyskini deməzdim. Ceyhun bəy Cavanşir İstanbulda öldürülmüşdür, Mustafa bəy Topçubaşov Parisdə dəfn olunub...

**Aydın Məmmədov:** Üzr istəyirəm, onlar, demək, hələ də sürgündədir də, özləri sürgün həyatı yaşayıb, onların qəbirləri də sürgündədir!

**Pərvin Mirzəzadə:** Bəli, bəli, bəli.

# ŞAHNAZ HAŞIMOVA:
## Şəki kəlağayılarını çox sevirəm!

***Bir neçə gün əvvəl, məşhur müğənni, Gəncə Dövlət Flarmoniyasının direktoru, Xalq Artisti Şahnaz Haşımova Şəkinin qonağı olmuşdur. Biz onu "Şəki-İpək" şirkətinin mağazasında "yaxaladıq"...***

**A. Məmmədov:** Şahnaz xanım, Şəki haqqında nə deyə bilərsiniz?

**Ş. Haşımova:** Şəki mənim ürəyimdə xüsusi yer tutan bir şəhərdir. Məm, hər ay ürəyim atlanır ki, Şəkiyə gəlim, Şəkini gəzim, Şəkinin paxlavası ilə çay içim, Şəkinin gözəl insanları ilə görüşüm və yenə də gedim Gəncəmizə. Bildiyiniz kimi, Gəncə Dövlət Filarmoniyasının yaradıcılarından biri və ilk direktoru şəkili Məmməd Bürcəliyev olmuşdur, bəlkə də elə buna görədir ki, mən Şəkini çox sevirəm.

**A. Məmmədov:** Neçə dəfə gəlmisiniz bura:

**Ş. Haşımova:** Çox, mən bura gəlmişəm, həftələrlə konsert vermişəm, Xan sarayında olmuşam, hər yerdə... Mənin çoxlu dostlarım var burada, ailəmizin dostları var, toylara gəmişəm, çox sevdiyim bir şəhərdir, kəlağayıları çox sevirəm, "İpək" kombinatında oldum bu gün, çox gözəl qarşılandım, kəlağayı hədiyə oldu mənə, burda bu gün, çox təşəkkür edirəm.

**A. Məmmədov:** Şəki televiziyasının xəbəri var, siz buradasınız? Xəbər versəm necə olar?

**Ş. Haşımova:** Şəki televiziyasının xəbəri olsa, – gülür. Mən gedirəm, çünki mənim xaricdən qonaqlarım var.

**A. Məmmədov:** Bizə təqdim edə bilərsiniz?

**Ş. Haşımova:** Professordu, Kvalovski, Litvadan gəlib, dilçi professordu. Şəkini çox sevdi və məndən xahiş etdi... Mən onu gəzdirirəm bütün Azərbaycanı, o bizim qədim atributlarımız ilə, qədim abidələrimizlə, hamısı ilə maraqlanır. O, deyir ki, məni tanış elə, Şəkiyə bir də gətir. Mən də deyirəm ki, mən səni hər dəfə Şəkiyə aparacam, çünki mənim özümün də ürəyi, bura gəlmək istəyir.

**A. Məmmədov:** Bu mağazadan nə bazarlıq elədiniz?

**Ş. Haşımova:** Burdan mən, bazarlıq heç eləmədim, mənə hədiyyə verdilər.

**A. Məmmədov:** Nə verdilər hədiyyə?

**Ş. Haşımova:** Mənə? Mənə bir dənə bax, gördüyünüz ağ kəlağayı, sonra bir dənə bax, - çantasını açır, sonra fkrindən daşınır, – çoxdu da, indi bir "sumka".

**A. Məmmədov:** İcazə verin, sizin foto şəklinizi çəkim.

**Ş. Haşımova:** Bir dənə çəkin, sənətkarın şəkli kimə qalır? Xalqına! Sizin bütün redaksiyanıza, heyətinizə, öz məhəbbəti, salamlarımı, çatdırıram.

**A. Məmmədov:** Təşəkkür edirəm.



### *Şahnaz Haşımovanın qısa bioqrafiyası*

***Şahnaz Haşımovanın respublikanın hüdudlarından çox-çox uzaqlarda milli musiqimizin, muğamatımızın tanınmasında, təbliğində xüsusi xidmətləri vardır. O, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasına bacarıqla rəhbərlik edir.***

***Ş. Haşımova şəhərin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, Gəncə Dövlət Filarmoniyasının "Göy-Göl" Dövlət Mahnı və Rəqs Ansamblı, Xalq Çalğı Alətləri Orkestri və Dövlət Kamera Orkestrinin konsertlərinə bədii rəhbərlik və təşkilatçılıq edir.***

***Ş. Haşımova bir çox xarici ölkələrdə dəfələrlə Azərbaycan musiqisinin əsl təbliğatçısı olmuş, yetişdirdiyi gənc müğənnilərlə Azərbaycanda və xarici ölkələrdə Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.***

***Şahnaz Haşımovanın Azərbaycan televiziyası və radiosunun "Qızıl Fondu"nda saysız-hesabsız lent yazıları qorunur və saxlanılır. Eyni zamanda rəhbərlik etdiyi kollektivlər AzTV və digər televiziya kanallarında çıxış edirlər.***

***Şahnaz Haşımova Gəncə Dövlət Filarmoniyasının musiqi kollektivlərinin cəbhə bölgələrində, əsgərlər qarşısında, qaçqın və köçkünlər qarşısında dəfələrlə çıxışlarını təşkil etmiş, özü ifa etdiyi vətənpərvərlik mahnıları ilə onlarda yüksək əhval-ruhiyyə yaradaraq, respublika Prezidentinin apardığı daxili və xarici siyasətin dəstəkləyicisi və təbliğatçısı olmuşdur.***

***Azərbaycan Respublikasının Xalq Artisti Şahnaz Haşımova özünün yüksək səhnə mədəniyyəti, savadı, özünəməxsus ifa tərzi, şirin və məlahətli səsi, bir sıra gözəl insani keyfiyyətləri ilə çalışdığı kollektivin və xalqın sevimlisinə çevrilmişdir.***

**DIQQƏT**

*İdarə, müəssisə, təşkilat, özəl sektorlar, fərdi və fiziki şəxslərin nəzərinə!*
**Elektron səhifələrinin hazırlanması və internet şəbəkəsinə yüklənilməsi.*
**Elektron səhifənin sahibinə, səhifənin idarə edilməsi üçün təlim.*
**Elektron səhifəyə uzun müddətli nəzarət və reklamı.*
**Domen və hostinq xidmətləri.*
**Peşəkar səviyyədə kurslar.*
*Əlaqə: (070) 250 65 10; (070) 270 65 10*
*"Əlişahoğlu" WEB STUDIYASI*
*www.webstudiya.net*

**DIQQƏT**

Əqli və fiziki cəhətdən qüsurlu olan uşaqların valideynlərinin nəzərinə:
*Əqli və fiziki cəhətdən qüsurlu olan uşaqlar üçün fərdi qaydada ibtidai sinfə dair kurslar təşkil olunur.*
*Əlaqə nömrəsi: (055) 641 40 13*

**DIQQƏT**

*Peşəkar kompüter kursları:*
- *Veb-dizayn*
- *Veb-master*
- *Qrafika*
- *İnternet*
- *Digər peşəkar proqramlar*

*Əlaqə nömrəsi: (055) 641 40 13*

## *Şəki televiziyası - Kanal S*
## VERİLİŞLƏRİN PROQRAMI (19 oktyabr– 24 oktyabr)

**19 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Gün gəlir |
| 11:00 | Cizgi filmi |
| 11:10 | Sağlam həyat(tək) |
| 12:00 | Hit-mix |
| 13:00 | B/F (təkrar) |
| 15:00 | Kanal S Xəbər |
| 15:15 | T/S"Məni yenidən sev" |
| 16:00 | Şou məkan(təkr) |
| 17:00 | Cizgi filmi |
| 17:30 | N&M (təkrar) |
| 18:00 | Lüks həyat |
| 18:30 | Hit-mix+ |
| 19:30 | Kanal S Xəbər |
| 20:00 | Kim haqlıdır? |
| 21:00 | T/S"Məni yenidən sev" |
| 21:50 | Derbi |
| 23:00 | Avand olsun |
| 23:30 | Kanal S Xəbər |
| 23:45 | B/f "Krallıq" |
| 01:45 | Klip |
| 03:00 | Efirin sonu |

**20 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Gün gəlir |
| 11:00 | Cizgi filmi |
| 11:10 | Həftənin qonağı(təkr) |
| 12:00 | Hit-mix |
| 13:00 | B/F (təkrar) |
| 15:00 | Kanal S Xəbər |
| 15:15 | T/S"Məni yenidən sev" |
| 16:10 | Sənədli film |
| 17:15 | Derbi (təkrar) |
| 18:30 | Hit-mix+ |
| 19:30 | Kanal S Xəbər |
| 20:00 | Kim haqlıdır? |
| 21:00 | T/S"Məni yenidən sev" |
| 22:00 | Səmimi rəsmiyyət |
| 22:50 | Sənətkar |
| 23:30 | Kanal S Xəbər |
| 23:45 | B/f "Qatillər" |
| 01:50 | Klip |
| 03:00 | Efirin sonu |

**21 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Gün gəlir |
| 11:00 | Cizgi filmi |
| 11:20 | Sənətkar (təkrar) |
| 12:00 | Hit-mix |
| 13:00 | B/F (təkrar) |
| 15:00 | Kanal S Xəbər |
| 15:15 | T/S"Məni yenidən sev" |
| 16:00 | Sənədli film |
| 17:00 | Cizgi filmi |
| 17:30 | Sağlam həyat |
| 18:30 | Hit-mix+ |
| 19:30 | Kanal S Xəbər |
| 20:00 | Kim haqlıdır? |
| 21:00 | T/S"Məni yenidən sev" |
| 22:00 | Müasir cəmiyyət və islam |
| 23:00 | Kriminal |
| 23:30 | Kanal S Xəbər |
| 23:45 | B/f "Qardaşlar" |
| 02:00 | Klip |
| 03:00 | Efirin sonu |

**22 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Gün gəlir |
| 11:00 | Cizgi filmi |
| 11:10 | Sağlam həyat(təkr) |
| 12:00 | Hit-mix |
| 13:00 | B/F (təkrar) |
| 15:00 | Kanal S Xəbər |
| 15:15 | T/S"Məni yenidən sev" |
| 16:00 | Panorama (təkrar) |
| 17:20 | C/F"Mulan 2" |
| 18:30 | Hit-mix+ |
| 19:30 | Kanal S Xəbər |
| 20:00 | Kim haqlıdır? |
| 21:00 | T/S"Məni yenidən sev" |
| 22:00 | "SMSlə seçilən B\F" |
| 23:30 | Bundes liqa |
| 00:20 | Kanal S Xəbər |
| 01:30 | Klip |
| 03:00 | Efirin sonu |

**23 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Gün gəlir |
| 11:00 | Cizgi filmi |
| 11:30 | Kolorit (təkrar) |
| 12:00 | Hit-mix |
| 13:00 | B/F (təkrar) |
| 15:00 | Kanal S Xəbər |
| 15:15 | Lüks həyat(təkr) |
| 15:50 | TV ensiklopediya |
| 16:30 | Sənədli film |
| 17:30 | Cizgi filmi |
| 18:00 | N&M TV |
| 18:30 | Hit-mix(top 10) |
| 19:30 | Kanal S Xəbər |
| 20:00 | Düyməcik |
| 20:30 | Evin içi |
| 21:30 | Gəzərsən görərsən |
| 22:30 | Hüquq və həyat |
| 23:30 | Kanal S Xəbər |
| 23:45 | B/f "Haçiko" |
| 01:20 | 3D formatlı film |
| 03:00 | Efirin sonu |

**24 oktyabr**

| | |
|---|---|
| 08:58 | Günün proqramı |
| 09:00 | Kanal S Xəbər |
| 09:10 | Cizgi filmi |
| 09:30 | Düyməcik (təkrar) |
| 10:00 | Klip |
| 11:00 | Avand olsun |
| 11:30 | B\F(təkrar) |
| 13:30 | Gəzərsən görərsən |
| 14:15 | Konsert |
| 15:00 | Sənədli film |
| 16:00 | Klip |
| 17:00 | Cizgi filmi |
| 17:30 | Azərlə hər bazar |
| 18:30 | Bundes liqa |
| 20:30 | Bu həftə |
| 21:30 | Şou məkan |
| 22:20 | Həftənin qonağı |
| 23:10 | B/f "İdeal varlıq" |
| 02:30 | Kriminal (təkrar) |
| 03:00 | Efirin sonu |



**Şəki şəhəri, 20 yanvar küçəsi**

**Tel: (+994 177) 4 68 75**
**Faks: (+994 177) 4 13 71**

## "ŞƏKİ ŞƏHƏR İCRA HAKİMİYYƏTİ" SAYTININ YAYDIĞI SON XƏBƏRLƏR

### ŞƏKİ MÜƏLLİMLƏRİ PEŞƏ BAYRAMLARINI QEYD ETMİŞLƏR

Şəki müəllimləri öz peşə bayramlarını yüksək əhval-ruhiyyə ilə qeyd edirlər. Bu, heç də təsadüfi deyildir. Onların yetirmələri ali məktəblərə builki qəbul imtahanlarında yüksək nəticələr göstərmiş, məzunlardan 370 nəfəri tələbə adını qazanmışdır.

Bundan əlavə, əvvəlki illərdə orta məktəbi bitirmiş 138 nəfər məzun da ali məktəb tələbəsi olmuşdur. Rayonun təhsil həyatında ilk dəfə olaraq Kiçik Dəhnə kəndindəki 2 nömrəli orta məktəbin məzunu Günel Abdullayeva qəbul imtahanlarında 700 bal toplamışdır. Şəkili məzunlardan 85 nəfəri 500-dən, 29 nəfəri isə 600 baldan yuxarı nəticə göstərmişdir.

Bu faktlar Beynəlxalq Müəllim Günü münasibətilə oktyabrın 5-də şəhər icra hakimiyyətində keçirilmiş ümumrayon tədbirində səslənən məruzə və çıxışlarda xüsusi olaraq nəzərə çarpdırılmışdır.

Tədbirdə şəhər rəhbərliyi, qabaqcıl təhsil işçiləri, ziyalılar, habelə idarə, müəssisə və təşkilat rəhbərləri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə şəhər icra hakimiyyəti başçısının müavini Zərinə Cavadova açaraq 5 oktyabrın bütün dünyada olduğu kimi, ölkəmizdə də Beynəlxalq Müəllim Günü kimi geniş qeyd olunduğunu bildirmiş, yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi işində müəllimlərin əməyini yüksək qiymətləndirmişdir.

Təhsil işçilərini peşə bayramları münasibətilə təbrik edən şəhər icra hakimiyyətinin başçısı Murad Cabbarlı bildirmişdir ki, müəllimlik dünyada ən çətin, eyni zamanda, ən şərəfli və gözəl peşədir. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Müəllimlərin yeni cəmiyyət quruculuğunun memarları olduğunu bildirən natiq, layiqli vətəndaş kimi yetişməyimizdə müəllimlərin əvəzsiz xidmətlərini xüsusi vurğulamışdır.

M.Cabbarlı bildirmişdir ki, Azərbaycanın dövlətçilik əsaslarını yaratmış ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyinin bütün mərhələlərində müəllim adının ucalığını, nüfuz və hörmətini qorumuş, bunu başqalarından da israrla tələb etmişdir. "Mən müəllim adından yüksək ad tanımıram" deyən ulu öndərimizin öz müəllimlərinə göstərdiyi yüksək ehtiram, alicənablıq nümunəsi gənc nəslin yararlana biləcəyi əvəzsiz örnək, xoş nümunə olmuşdur.

Tədbirdə çıxış edən şəhər təhsil şöbəsinin müdir əvəzi Bəhyəddin Qüvvətov, ölkəmizdə müəllim əməyinə və şəxsiyyətinə daim yüksək qiymət verildiyini bildirmiş, müstəqil Azərbaycanın gələcəyinin məhz müəllim əməyinin düzgün təşkilindən, gənc nəslin təlim-tərbiyəsi işinə göstərilən qayğıdan daha çox asılı olduğunu nəzərə çarpdırmışdır. Natiq, Prezident İlham Əliyevin son sərəncamları ilə Şəki müəllimlərindən də iki nəfərinin Əməkdar Müəllim adına layiq görülməsini və "Tərəqqi" medalı ilə təltif edilməsini dövlət başçısının bu nəcib peşə sahiblərinə diqqət və qayğısının bariz nümunəsi olduğunu xüsusi vurğulamışdır.

Tədbirin sonunda təhsildə fərqlənən qabaqcıl müəllimlərə pul mükafatı və qiymətli hədiyyələr təqdim edilmişdir.

*11.10.2010*

### ABŞ SƏFİRLİYİ ŞƏKİDƏ "İLİN ŞƏKİLLƏRİ" ADLI FOTOSƏRGİ AÇMIŞDIR

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Şəki şəhərindəki Çingiz Mustafayev adına klubda "İlin şəkilləri" adlı beynəlxalq fotosərgi açılmışdır.

Oktyabrın 2-də mədəniyyət ocağında sərginin təntənəli açılış mərasimi olmuşdur. Tədbirdə incəsənət həvəskarları, ictimaiyyətin nümayəndələri, habelə səfirliyin əməkdaşları iştirak etmişlər.

Mərasimdə çıxış edən səfirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Terri Devidson bildirmişdir ki, ABŞ səfirliyi Azərbaycanda müxtəlif sahələr, o cümlədən mədəniyyət sahəsi üzrə layihələr həyata keçirir. Amerikanın Missuri Universiteti tərəfindən təşkil olunan bu sərgi məhz belə tədbirlərdən biridir. Sərgi artıq Bakı və Gəncə şəhərlərində nümayiş olunmuşdur. Sərgi ötən il beynəlxalq müsabiqənin qalibi olmuşdur. Yaxşı olardı ki, azərbaycanlı fotoqraflar da belə müsabiqələrdə iştirak etsinlər.

Sərgidə nümayiş etdirilən fotoşəkillərdə dünyada baş verən hadisələr, o cümlədən təbii fəlakətlər, ekstremal şəraitdə insanların mübarizəsi, qələbəsi əks olunmuşdur.

Daha sonra sərgiyə baxış olmuşdur. Sərgidə 54 fotoşəkil nümayiş etdirilir. Fotosərgi oktyabrın 10-dək davam edəcəkdir.

*05.10.2010*

### ŞƏKİ TAXILÇILARI MÖVSÜMƏ CİDDİ HAZIRLAŞIRLAR

Şəki rayonunun taxılçılıq təsərrüfatlarında payızlıqların səpini üçün yay şumunun çıxarılması davam edir.

Şəhər icra hakimiyyətinin aqrar məsələlər şöbəsindən "AzərTAc"-a bildirmişlər ki, bu il 75 min hektar sahədə payızlıq taxıl səpiləcəkdir. İndiyədək 26 min hektara yaxın sahədə yay şumu çıxarılmışdır. Kampaniyaya "Aqrolizinq" ASC Şəki servis filialının 40 traktoru, əhalinin şəxsi mülkiyyətində olan texnika cəlb edilmişdir.

Payızlıqların səpini üçün 15 min ton toxum fondu tələb olunur. Artıq 12 min ton yüksək reproduksiyalı arpa və buğda toxumu laboratoriya müayinəsindən keçirilərək, səpinə hazır vəziyyətə gətirilmişdir. Səpinə oktyabrın ortalarında başlamaq nəzərdə tutulur.

Xatırladaq ki, 2010-cu ildə Şəkidə 135 min ton taxıl istehsal olunmuşdur.

*27.09.2010*

### ŞƏKİ VETERANLARININ KONFRANSI KEÇİRİLMİŞDİR

Şəki şəhərindəki M.F.Axundov adına mədəniyyət evində Pespublika Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurası rayon təşkilatının XI konfransı keçirilmişdir.

Konfransda təşkilatın sədri Cəmaləddin Həmidovun hesabat məruzəsi dinlənilmişdir. Məruzədə qurumun əvvəlki konfransdan keçən iki il müddətindəki fəaliyyəti ətraflı təhlil edilmiş, qarşıda duran vəzifələrdən bəhs olunmuşdur.

Konfransda çıxış edənlər cəmiyyətin ən hörmətli təbəqəsi sayılan müharibə və əmək veteranlarının sosial problemlərinin həlli və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində dövlət başçısı tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirləri yüksək qiymətləndirmiş, bu qəbildən olan insanların daim qayğı ilə əhatə olunduqlarını xüsusi vurğulamışlar.

Rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup veterana fəxri fərman və qiymətli hədiyyələr təqdim edilmişdir.

Konfransda təşkilati məsələyə baxılmış, Cəmaləddin Həmidov yenidən təşkilatın sədri seçilmişdir.

*27.09.2010*

# ŞƏKİDƏ "LİDERLİK VƏ GENDER BƏRABƏRLİYİ" MÖVZUSUNDA BEYNƏLXALQ SEMİNAR BAŞA ÇATMIŞDIR



***Vüqar İsgəndərov***
*Şəki Şəhər Gənclər və İdman İdarəsinin rəisi*

Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı (AGAT) Avropa İttifaqının Gənclər Fəaliyyətdə Proqramı çərçivəsində Fransanın qabaqcıl QHT-lərindən biri sayılan AMSED təşkilatı ilə birgə əməkdaşlıq sayəsində Şəkidə təşkil etdiyi "Liderlik və gender bərabərliyi" mövzusunda beynəlxalq seminar başa çatmışdır.

Şəhərin "Yuxarı Karvansaray" mehmanxana-kompleksində 10 gün davam edən beynəlxalq seminarda Fransa, Yunanıstan, Belçika, İspaniya, Bolqarıstan, İtaliya, Türkiyə, Əlcəzair, Fələstin, Mərakeş, Rusiya və Moldovadan 45 gənc fəal iştirak etmişdir.

Tədbirdə Azərbaycanda gender məsələləri ilə bağlı əldə olunan nailiyyətlər, ölkəmizin tarixi, mədəniyyəti və reallıqları, habelə respublikamızda gənclər siyasəti və gənclər təşkilatlarının dövlət strukturları ilə əməkdaşlığı barədə ətraflı məlumat verilmişdir. Eyni zamanda, seminarın ilk günlərində hər bir dövlətin nümayəndəsi öz tarixi və mədəniyyəti ilə bağlı təqdimat keçirmişdir.

Bundan əlavə, seminar çərçivəsində, iştirakçı ölkələrin 15-dən artıq QHT təmsilçisi Şəki şəhərində fəaliyyət göstərən "Uluçay" və "Region Qadınlarının Təşəbbüsü" təşkilatlarının nümayəndələri ilə qadınlar və liderlik mövzusunda fikir mübadiləsi aparmışlar. Tədbirin son günlərində iştirakçılar arasında yeni layihələrin hazırlanması ilə bağlı iş təşkil olunmuşdur.

Eyni zamanda, tədbir çərçivəsində iştirakçılar Kiş kəndindəki qədim alban məbədini və Şəki xanlarının sarayını ziyarət etmiş, şəhərin görməli yerləri ilə tanış olmuş, şəhər gənclər və idman idarəsinin rəhbərliyi ilə görüşmüşlər. Seminar iştirakçılarına Azərbaycanın reallıqları barədə ətraflı məlumat verilmişdir.

Tədbirin sonunda beynəlxalq seminarın iştirakçılarına sertifikatlar təqdim olunmuşdur.

*27.09.2010*



*"Şəki-İpək" ASC Yanğından Mühafizə dəstəsinin rəisi* ***Qaffar İsayev:*** *Həyata keçirdiyimiz profilaktiki tədbirlər nəticəsində bu yay mövsümündə heç bir yanğın hadisəsi baş vermədi!*

**Həmtəsisçilər:**
1. *"Şəki-İpək" şirkəti;*
2. *M. Salis.*

**Redaktor:** *A. Məmmədov.*

**Çapa təqdim edildi:** *18.10.2010.*
**Sifariş:** *3964* .
**Tiraj:** *500.*
**Şəhadətnamə №** *177.*

**Ünvanımız:** *Az.5500. Şəki şəhəri, Z.Bünyadov, 33.*
**E-mail:** *aydin.salis@gmail.com*
**Tel.:** *055 793 23 83, 012 480 12 45, 0177 423 15*

**"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.**

**"İpəkçi" qəzeti müstəqil KİV olaraq fəaliyyət göstərir və bu qəzetdə dərc olunmuş xəbər və məqalələrin məzmununa görə "Şəki-İpək" ASC heç bir məsuliyyət daşımır!**

■"İpəkçi" qəzeti 1933-cü ildən nəşr edilir və respublikamızda nəşri davam edən yeganə çoxtirajlı (Sovet dövründə müəssisə qəzetləri belə adlanırdı), yeganə fəhlə qəzetidir!

■"İpəkçi" qəzeti 12.12.1990-ci il tarixdə, özünü "Azarbaycan İpəkçilərinin Açıq Tribunası" elan edərək, hələ Sovet dövründə, rəsmən, müstəqil Azərbaycan mətbuatın əsasını qoymuşdur!

■Azərbaycan Sovet mətbuatında ənənəvi "Bütün ölkələrin proletarları birləşin!" şüarından və Kommunist partiyasının təsisçiliyindən də ilk dəfə - 12.12.1990-ci il tarixdə, "İpəkçi" qəzeti mtina etmişdir!